# Kiçik istedadlar Milli Məclisdə

## *Onlar parlamentdə təşkil olunan mərasimə xoş ovqat qatdılar*



Hər il 1 iyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə ölkənin əksər dövlət strukturlarında uşaqların iştirakı ilə maraqlı tədbirlər təşkil olunur. Bu tədbirlərdə gələcəyimiz olan fidanlar öz istedad və bacarıqlarını nümayiş etdirirlər.

Artıq ənənə halını alan belə toplantılardan biri də Milli Məclisdə gerçəkləşib. Milli Məclis rəhbərliyinin xüsusi diqqət və göstərişi əsasında təşkil olunan mərasimdə yenə də xoş anlar yaşanıb.

Başqa sözlə, dünən yenə parlament uşaqların ixtiyarına verilmişdi. Foyedə təşkil olunmuş uşaqların əl işlərindən ibarət "Mənim Azərbaycanım" adlı sərgidə maraqlı rəsm əsərləri nümayiş olunurdu. Bunları partlamentə həm Bakıda, həm də Azərbaycanın müxtəlif şəhər və rayonlarında təhsil alan şagirdlər göndərmişdilər.

Öncə şagirdlər Milli Məclisin iclas zalına, sonra ulu öndər Heydər Əliyev xatirə zalına baş çəkdilər. İclas zalında uşaqlara Milli Məclisin yaranma tarixi, fəaliyyəti ilə bağlı geniş məlumat verildi. Xatirə zalında şagirdlər dahi şəxsiyyətin zəngin həyat yolunu, siyasi və dövlətçilik fəaliyyətini əks etdirən çoxsaylı eksponatlara baxdılar.

Foyedəki sərgi ilə tanışlıqdan sonra kiçik istedadların iştirakı ilə "Mənim səsim - mənim hüquqlarım: Parlament müzakirəsi" mövzusunda "dəyirmi masa" keçirildi.

Milli Məclis Sədrinin müavini, parlamentin İnsan hüquqları komitəsinin sədri Bahar Muradova bildirdi ki, uşaq hüquqları ümumilikdə insan hüquqlarının ən vacib istiqamətlərindən biridir. Bu məsələ BMT-nın 1989-cu il noyabrın 20-də qəbul etdiyi konvensiyada öz əksini tapıb. Azərbaycan da beynəlxalq ictimaiyyətin bərabərhüquqlu üzvü kimi bu konvensiyaya qoşulub və ondan irəli gələn öhdəliklərini də digər qanunlarda təsbit edib. 1950-ci il iyunun 1-də BMT Baş Assambleyası tərəfindən bu günün uşaqların müdafiəsi günü kimi qeyd olunması qərara alınıb. Ölkəmizdə uşaqların ən böyük himayədarının sağlığında ulu öndər Heydər Əliyev olduğunu qeyd edən vitse-spiker dedi ki, indi dahi şəxsiyyətin layiqli davamçısı Prezident İlham Əliyev uşaqların hüquqlarının müdafiəsini ən vacib məsələ kimi qiymətləndirib.

Mərasimdə iştirak edən şagirdlərə uğurlar arzulayan vitse-spiker ümidvar olduğunu bildirdi ki, bu gün Azərbaycanı beynəlxalq olimpiadalarda uğurla təmsil edən uşaqlar gələcəkdə dövlətin inkişafına böyük töhfələr verəcəklər.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Hicran Hüseynova dedi ki, Azərbaycan hökuməti uşaqlar üçün bütün sahələrdə geniş imkanlar yaradıb. Yəni hər bir uşaq üçün istedadını, bacarığını nümayiş etdirməsi üçün istənilən şərait var. Lakin Azərbaycanda bu günü istədikləri kimi qeyd etməyən uşaqlar da var. Onlar Ermənistan silahlı birləşmələri tərəfindən torpaqları işğal olunan, evləri yağmalanan uşaqlardır. Atəşkəs dövründə 34 uşaq erməni terrorunun qurbanı olub. Onlardan 14-ü həlak olub, 20-si ağır yaralanıb. Bu gün də işğalçı ölkə tərəfindən mənfur siyasət davam edir.

UNICEF-in Azərbaycandakı nümayəndəsi Edvard Karvardin də dedi ki, dünyanın bütün ölkələrində uşaqların firavan yaşamaları təmin edilməlidir. Azərbaycanda uşaqlar üçün bu sahədə yaradılan imkanları nümunə göstərmək olar. Ölkədə uşaqların xoşbəxt, firavan böyüməsi üçün yaradılmış şəraiti, dövlət qayğısını yüksək qiymətləndirən diplomat uşaq hüquqlarının müdafiəsinə dair qəbul edilmiş qərarların gələcəkdə daha müsbət nəticələr verəcəyinə əmin olduğunu bildirdi.

Fransalı yazıçı-jurnalist Jan-Lui Quro isə Azərbaycanda qadınlara, uşaqlara yaradılan şəraitdən söz açdı. Azərbaycan qadını haqqında iki cilddən ibarət kitab hazırlayan publisist dedi ki, bu gün Azərbaycanda Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın apardıqları siyasət nəticəsində uşaqların müdafiəsi sahəsində uğurlu işlər həyata keçirilir.

Sonra iclasda müxtəlif idman yarışlarında, olimpiadalarda çempion olmuş şagirdlər həm çıxış etdilər, həm də onları maraqlandıran suallarla deputatlara müraciət etdilər.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Aqiyə Naxçıvanlı, Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli, Gənclər və idman komitəsinin sədri Ülvi Quliyev, Səhiyyə komitəsinin sədr müavini Musa Quliyev və Elm və təhsil komitəsinin sədr müavini Bəxtiyar Əliyev şagirdlərin suallarını cavablandırdılar və gənc istedadlara növbəti yarışlarda uğurlar arzuladılar.

Axırda beynəlxalq yarışlarda fərqlənən şagirdlər diplom və hədiyyələrlə təltif edildilər. İstedadlı uşaqlar müxtəlif musiqi alətlərində öz məharətlərini də nümayiş etdirdilər.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2018.- 2 iyun.- S.5.